# Yaşasın Monqol Böyük İranı – İranzəmin

written by Munkhnaran Bayarlkhagva Munxnaran Bayarlxaqva
Keçən onilliyin ortalarında, isti avqust günlərinin birində Şimali İrandakı Ələmut qəsrinə aparan dar bir yoxuşla qalxırdım. Nəfəsimi dərmək üçün dayananda yanımdan bir ata ilə qızı keçirdi və məni görən qız atasına: "Ata, bax, çinli!" dedi. Atası üzünü mənə çevirib baxanda: "Çinli deyiləm, monqolam!" deyə cavab verdim. Ata və qızı öz aralarında söhbət edərək yollarına davam etdilər. Lakin 30 addım irəlidə olan digər iki nəfər geri, üzü mənə tərəf çevrildilər. Əynində mülki paltar, başında enli papağı olan, bir əsgərin müşayiət etdiyi şəxs mənim doğrudan da monqol olub-olmadığımı soruşdu. O, özünü yaxınlıqda yerləşən Qəzvindəki universitetin tarix professoru kimi təqdim etdi və mənə qalada bələdçilik edə biləcəyini söylədi.

Mənim bu könüllü bələdçim özünün mütəxəssis biliyi ilə qərib yerdə darıxdırıcı ola biləcək gəzintimi keçmişin təxəyyülünü canlandıran bir nəqlinə çevirdi və tezliklə, bizim üç nəfərlik qrupumuza onlarla digər insan da qoşuldu. Bələdçimizin hekayəsi qalanın monqollar tərəfindən ələ keçirildiyi 1256-cı ilə çatmışdı ki, Məşhəddən olan, badam gözləri qabarıq şəkildə nəzərə çarpan bir qadın üzünü mənə çevirərək, bir az da hirsli şəkildə: "Qalanı dağıtmısınız, çox sağ olun!" dedi. Bunun arxasınca düşən gərgin sükutu, nəhayət, yanda duran bir nəfərin: "Biz monqolları günahlandırmamalıyıq, əksinə ilk İslam terrorçularını məhv etdikləri üçün onlara təşəkkür etməliyik!" sözləri pozdu. Ətrafda hamı gülməyə başladı. Daha düzgün anlaşılması üçün qeyd edim ki, bunlar İranın İŞİD ilə döyüşmək üçün İraqa müdaxilə etdiyi və İranın Qüds qüvvəsinin rəhbəri Qasım Süleymaninin adının dillər əzbəri olduğu günlər idi.

Bu epizod iranlıların monqollar barədə əksəriyyəti əhatə edən

təsəvvürünü nümayiş etdirməklə yanaşı, iranlıların inandıqları milli narrativlərin nə qədər yaddaşdan kasad olduğunu göstərir. Monqollar barədə onların bir vaxtlar fəth etdikləri yerlərdə bugün mövcud olan indiki hökumətlərin ümumi hekayəsi budur ki, qana susamış, qətliamlar törədən ordular çiçəklənən İran şəhər-sivilizasiyalarını ələ keçirmiş və təsiri bu günə qədər gəlib çatan milli travmaya bais olmuşlar. Çaylar qan rənginə boyanmış, kitabxanalar yandırılmış, barbar təcavüzkarlar düşmənlərinin kəsilmiş baş və qulaqlarından ucaltdıqları təpələrdə əylənmişlər.

Bu cür yanaşma istər 2022-ci ildə ABŞ-ın *300* adlı bədii filminin replika edilərək musiqili tamaşa şəklində səhnələşdirildiyi və bu zaman farsların deyil, monqolların orientallaşdırıldığı İranın daxilində, istərsə də, siyasət fanatikləri tərəfindən Trampın bu ölkəni bombalamaq hədələrinin Çingiz xanla müqayisə edildiyi diasporunda, yəni xaricində aparıcı görüşdür.  Səkkiz əsr əvvəl baş vermiş hadisələr müasir iranlıların beyinlərinə elə ciddi şəkildə hopub ki, çoxları Çingiz və monqolları Hitlerlə müqayisə edir və monqol “cinayətlərini” Holokostla eyniləşdirirlər.

**İlahinin məxfi planı, yaxud Monqol propaqandası**

Bu cür soyqırım ittihamlarını anaxronist təxəyyülün məhsulu kimi ciddiyə almamaq asan olsa da, bu diskurs sadə milli konstruksiyadan daha böyük şeyləri ehtiva edir. Bu diskursu açmaq üçün səhnəni ilk növbədə tarixə daha dərin baş vurmaqla qurmalıyıq.

Bunun üçün biz yer və ərazi adlarının daşlaşmadığını, daim dəyişməkdə olan ideya və konstruksiyalar olduğunu nəzərdə tutaraq, müasir İran ərazisinin 1220-ci ildə monqolların gəlişi ərəfəsində necə bir yer olduğunu yada salmalıyıq. 12-ci əsrin sonlarında Səlcuq imperiyası tənəzzüldə idi və müasir İranın şərq ucqarları, müasir Türkmənistan, Özbəkistan və şimali Əfqanıstan yeni, qurulmaqda olan türk Xarəzm imperiyasının idarəçiliyi altına düşmüşdü. Şimali İranın

dağlıq bölgələrini isə İsmaililər idarə edirdi, cənubi İranın xırda dövlətləri də Bağdad Abbasilərinin nəzarəti altına qaytarılmışdı. Bu gün İran adlandırılan torpaqlar ciddi şəkildə parçalanmışdı və hakimiyyət çəkişmələri meydanı idi. Bununla yanaşı, ərazi kimi qədim İran ideyası çoxdan yox olmuşdu, irq və mədəniyyət baxımından da hansısa ümumiləşdirici məna daşımırdı. 11-ci əsrin sonuna aid mənbələrdə *İran* Baktar, Xorasan, Nimruz kimi keçmiş Sasani imperiyasının ərazilərindən biri kimi təqdim olunurdu. Monqol dövrünün sübh çağında *İran* sözü  sadəcə tarixi yaddaşı ifadə edirdi (ĒRĀN, ĒRĀNŠAHR n.d.; Durand-Guedy 2014, 70).

İkincisi, biz 13-cü əsrdəki monqol hərbi kampaniyaları arasındakı keyfiyyət fərqlərini anlamalıyıq. Çingiz Xarəzmə müdaxilə edərkən o, sözsüz ki, yeni əraziləri inzibatı-ərazi vahidləri kimi imperiyasına qatmaq istəyirdi. Xarəzm dövlətinin taxt-tacının qərar tutduğu yerlər dağıdılmış və monqol hərbi fəthinə tabe olmaq istəməyən şəhərlər dərhal cəzalandırılmışdı. Bu kontekstdən yanaşanda Subutayın monqol ordularının Transoksianadan başlayıb Şimali İrandan, Qafqazdan, Cənubi Rusiyadan keçərək, nəhayətdə Monqolustana qayıtması ilə nəticələnən kampaniyasının məqsədi isə yeni əraziləri inzibati nəzarətə götürmək deyil, düşmənin siyasi rəhbərliyini təqib etmək, kəşfiyyat məlumatları toplamaq və hərbi-siyasi ittifaqlar qurmaq idi ki, buna görə də kampaniya tez-tez böyük şəhərlərdən yan keçir və lüzumsuz hərbi toqquşmalardan çəkinirdi.

Monqol müharibələri, heç şübhəsiz, qəddar idi və monqolların sarayında çalışan tarixçilər də bu qəddarlığı xüsusi qeyd edirlər. Müasir İrandakı Nişapur, Türkmənistandakı Mərv, Əfqanıstandakı Herat kimi əvvəl tabe olmuş, sonra üsyan etmiş şəhərlər bu qeydlərdə xüsusi vurğulanır. Lakin müasir tarixçinin işi tarixi deşifrə etmək və onu əfsanələrdən ayırmaq olsa da, monqol saray tarixçilərinin monqol qılıncı altında milyonların məhv edilməsi haqqında yazdıqları adətən İran tarixşünaslığı tərəfindən izah edilərkən tənqidi yanaşmaya məruz qalmır (Lane 2012, 247).

Məsələn, Xarəzm yürüşü barədə ilkin, lakin hadisələrdən sonra yazılmış mənbə olan Ata Məlik Cüveyninin *Tarixi-* Cahanguşə əsəri Monqol imperiyası barədə dövlət tərəfindən sifariş edilmiş təbliğat idi. O, Çingiz xanı günahkarları cəzalandıran "İlahinin qəzəbi" kimi təsvir edir. Belə bir statusa və ambisiyaya malik, monqolların öz müsəlman rəiyyəti üzərində hakimiyyətini legitimləşdirmək niyyəti güdən kitabda monqol idarəçiliyinə tabe olmamaq üstündə qətllər orta əsrlərdə əhalinin istənilən hesablanmasının ən yaxşı halda ehtimala əsaslanmasına oxşar tərzdə milyonlarla şişirdilib (Guinnane 2023, 1).

Bu cür şişirtmələr adı çəkilən şəhərlərin bu sayda əhaliyə malik olmasının qeyri-mümkünlüyü, həmçinin 13-cü əsrdə mövcud texnologiyaların şəhərlərin belə yerlə-yeksan edilməsi gücündə olmaması səbəbilə akademiya tərəfindən çoxdan çıxdaş edilib (Lane 2014, 149). Rəşidəddin kimi sonrakı dövrdə yaşayan tarixçilər isə, hansı ki o da monqol saray tarixçisi idi, Çingizin rolunu "İlahinin göndərdiyi, bəxtəvərlik bəxş edən böyük və qüdrətli hakim" kimi izah edirdilər və iddia edirdilər ki, bu monqol hakimi yer üzünü şərdən, riyakarlıqdan, üfunətdən təmizləmək üçün göndərilmişdir (Biran 2007, 113).

Lakin burada adətən bizə deyilməyən odur ki, bu şəhərlərin istilası şəhərin həyatına birdəfəlik son qoyan bir tək hadisədən ibarət olmurdu, proses Monqol işğalı dövründə bəzən nəticə verən, bəzən verməyən silsilə mühasirələrdən, üsyanlardan, rəqiblərin tərəf dəyişdirmələrindən ibarət hadisələr məcmusu idi ki, burada çoxlu sayda yerli türklər və 13-cü əsrin terminologiyası ilə ifadə etsək, taciklər bütün oynanılan rollarda yer alırdılar (Manz 2022, 200). Əyani nümunə kimi Səraxs şəhərini göstərmək olar ki, bu şəhərin rəhbərlərinin tapşırığı ilə hərbi qüvvələri, əvvəl monqollara tabe olmuş, bir ildən sonra isə üsyan etmiş Mərvdə törədilən böyük qətliamda monqollara yardımçı olmuşlar. Bu üsyan sonra Səraxs əhalisinin də üsyana qalxması ilə nəticələnsə də, Səraxs monqollara qarşı üsyan edərkən bu şəhərin öz sərkərdəsi

Mərvdə monqollara qarşı üsyanın yatırılması ilə məşğul idi.

Hətta ən qanlı anlarda belə, monqol qəddarlığı həmişə tacik məsləhətçiləri və türk qoşunu olan monqol sərkərdələrin tacik, yaxud ərəb başçısı olan, əhalisi əksərən türklərdən ibarət şəhərlərlə qarşı-qarşıya gəldiyi qarışıq bir səhnə idi, səbəbi də yerli çaxnaşmalar olurdu. Monqol işğalı heç vaxt bu şəhərlərin həyatına birdəflik son qoyulması ilə nəticələnməyib, sonrakı dövrə aid qaynaqlar göstərir ki, monqolların təyin etdiyi Kərt sülaləsi regionun yenidən qurulmasını həyata keçirib. Həmçinin aşağı Amudərya və Sırdərya çaylarının hövsəzindəki sivilizasiyalar və Otrar şəhəri monqollara görə deyil, iqlim dəyişikliyi səbəbilə məhv olub (White, 2020).

Bir çox mənalarda monqollar öz uğurlarının qurbanına çevriliblər, lakin anaxronistik şəkildə, özünü o dövrə aid tacik kimi terminin istifadəsi əvəzinə fars və yaxud iranlı kimi terminlərin istifadəsində büruzə verən bügünkü kimlik siyasətinə əsaslanmış motivlərin o dövrə aid edilməsi tarixi hadisələrin düzgün anlaşılmamasını davamlı edir. Belə anaxronizmlər dövrün siyasi müharibələrinin həqiqi mənzərəsinə çaşqınlıq gətirir.

**Monqol Böyük İranı**

Bugünkü İran ərazilərinə ikinci monqol müdaxiləsi zamanı bölgənin siyasi xəritəsi xeyli fərqli idi. 1250-ci illərin sonlarında Çingizin kiçik oğlu Tuluyun varislərinin idarəsi altında olan qlobal monqol imperiyası artıq zövqünü əzəmətlilik iddialı ambisiyalarına uyğunlaşdırmışdı. Daim genişlənməkdə olan imperiya boyunca Çingizin törəmələrinin saraylarında, artıq əsl-nəcabəti ən müxtəlif olan insanlar parlaq karyera qururdular. Belələri sırasına, misal üçün elə Cüveyninin özü kimi fars dilində danışan tacik rəsmilər də daxil idi. Məhz elə bu dövrdə idi ki, Qəzvin şəhəri Böyük Xan Mönqkenin hüzuruna elçilər göndərməklə cürətli siyasi gediş etmişdi.

1250-ci ildə Qəzvin əyanları şəhər qazisinin rəhbərliyi altında Mönqkenin sarayına elçilər göndərərək İsmaililərdən və həmçinin Azərbaycanın Muğan düzündə düşərgə salmış monqol sərkərdəsi Baycunun qayda-qanunu bərpa edə bilməməsindən şikayətçi düşmüşdülər. İdarəçilər arasında bir neçə nəsillik tarixi əlaqələrinə (Qəzvinin İftixar ailəsi Tuluy sarayında müəllimlik etmişdilər) arxalanan qəzvinlilər monqol daxili siyasəti barədə bilgilərindən yararlanırdılar. Onlar bilirdilər ki, Qızıl Ordanın başçısı Batı Baycunu özünə tabe etməyə çalışır, Tuluy varisləri isə bunun qarşısını almaq istəyir. Belə düşünülür ki, Qəzvin elçiləri öz bilgi və nüfuzlarından Hülakünü müdaxilə etməyə inandırmaq üçün istifadə etmişdilər (Yildiz 2020, 47).

Qəzvin əyanları öz ölkələrinin periferik statusuna son qoymaq istəyirdilər. Monqollar üçün İrana müdaxilə barədə siyasi qərar vermək vacib deyildi və monqollarla İsmaililərin qarşılıqlı inamları olmasa da, bir-birini yola verə bilən müttəfiqlər idi (Dashdondog 2020, 310). Ona görə də, monqol elitasını Amudərya çayını keçərək, o tərəfdəki torpaqları imperiyaya qatmaq üçün Hülaküyə mandat verilməsinə inandırmaq elə də asan olmamışdı. Müdaxilə yaxınlaşdıqca İsmaililərin Ələmut qalasından əks tərəfə keçmək istəyənlər və alimlər artıq monqollara kömək etmək üçün planlar cızırdılar. Bunların içində alim Nəsrəddin Tusi və tarixçi Rəşidəddinin ailə üzvləri də var idi (Lane 2012, 4).

Hülakü Amudəryanı keçəndən sonra bu yerlərin qarışıq türk hakimlərindən və hətta cənubi İran şəhərlərinin Xitan-Qutluqxanilərindən belə cüzi müqavimət görmüşdü. Əksəriyyət Hülakünü xilaskar kimi qarşılayırdı və onun tənəzzülə, parçalanmaya son qoyacağını gözləyirdi. Bu yerlərin bir çox hakim sülalələri hətta İlxanilər dövlətinin yıxılmasından sonra belə mövcudiyyətini saxlamışdılar. 1256-cı ildə Ələmutun qəsb edilməsi nəticəsində sonradan Hülakünün məsləhətçisi olmuş və monqol ordularının Bağdad yürüşünə qoşulmuş Nəsrəddin Tusi kimi siyasi məhbuslar azad edilmişdi. Bununla belə qeyd etmək lazımdır ki, xalq arasında geniş yayılmış fikrin əksinə

olaraq, Ələmutun alınması, görünür ki, İsmaili dövlətinin varlığına son qoymamışdı. Bu dövlət şimali İranda mövcudiyyətini davam etdirmiş və hətta 1270-ci ildə qəsri geri almağa müvəffəq olmuşdu.

1258-ci ildə Hülakü Bağdada çatarkən buralar artıq müxtəlif etnik qrupların ermənilərin, gürcülərin, kürdlərin, həmçinin cənubi İranın çoxsaylı şəhər dövlətlərinin qaynayıb qarışdığı bir mülk idi (Lane 2012, 17). Burada da, yenə əksəriyyətin qəbul etdiyi fikrə qarşı çıxaraq qeyd edək ki, monqollar nə kitabxanaları yandırmış, nə də kütləvi qətliam törətmişdilər. Əksinə, Bağdad kitabxanasının kitabları qorunmuş, İslam adətinə uyğun olaraq Marağadakı rəsədxanaya, Nəsrəddin Tusinin istifadəsinə göndərilmişdi. Tusinin ölümündən sonra isə təhsilli kitabxanaçı İbn əl Fuvati tərəfindən kitablar Bağdad kitabxanasına qaytarılmışdır. İlxanilər dövrünün Bağdadının diqqətlə öyrənilməsi göstərir ki, onların idarəçiliyi altında şəhərdə kitab mədəniyyəti dirçəlmiş və çiçəklənmişdi (Biran 2019, 466).

Eynilə bunun kimi Bağdadın Urmiyada anadan olmuş bölgə hakimlərindən biri Urmavinin Baycu noyonla hekayəsi də heç vaxt geniş danışılmamışdır (Biran 2018, 16). Urmavinin itaəti və xərac vermək üçün qənimət toplaması onun Monqol sarayındakı sonrakı karyerasına yol açmışdır. Hətta bəzi bilavasitə həmin dövrə aid olmayan mənbələr Hülakünün işğalı dövründə Bağdadın əhalisinin əksər hissəsinin qətliam edildiyini yazsalar da, dövrə aid digər mənbələr qeyd edirlər ki, sənətkarlar, dini azlıqlar, tacirlər, alimlər, istedadlı insanlar məqsədyönlü olaraq qorunmuş və yerli Bağdad elitasından çoxları şəhərin yeni təyin olunmuş hakimi Ata Məlik Cüveyninin rəhbərliyi altında işləmək imkanı qazanmışlar (Biran 2023, 187).

Bağdadı tutandan sonra Hülakü Abbasi rəsmilərini yenidən vəzifələrə təyin etmiş, sənətkarlara və imperiyaya aid emalatxanalara yenidən fəaliyyətlərini bərpa etmək əmri vermişdir. Həmçinin o, Abbasi sərkərdələrini xilafət hərbçilərini toplayıb monqol ordusuna qatmaq işinə cəlb

etmişdir. Bağdad özünün ticarət, ideyalar, güclü sənətkarlıq mərkəzi statusunu qorumuş və İlxanilərin qış paytaxtına çevrilərək daha da kosmopolit bir imperiyanın tərkibində çiçəklənmişdir. Bağdadın monqol idarəçiliyi dövründə İslam incəsənətinin ən möhtəşəm sənət əsərlərindən bəziləri ərsəyə gəlmişdir ki, bunların içərisində bu gün dünyanın muzey və sərgilərini bəzəyərək mütəmadi şəkildə Qərb islamofobiyasına qarşı mübarizəyə töhfə verən nəfis Quran nüsxələri də vardır (Brinkmann 2008, 11; Larson 2016).

Bəzən elə gəlir ki, müasir insanlar bəşər tarixinin qəddar olduğunu və dövlətlərin təməlinin məhz bir qrupun digər qrupa öz hakimiyyət və iyerarxiyasını qəbul etdirmək bacarığı ilə qoyulduğunu unudur. Yəni fəth nəzəriyyəsinin göstərdiyi kimi, dövlətin və ərazilərinin əsasının qoyulması tabe etdirilməni ehtiva edir ki, bu da mahiyyəti etibarilə qəddarlıqdır (Munkh-erdene 2023, 289-322). İran timsalında da Sasani dövrünün Böyük İran ideyasının yenidən dirçəlişi xeyli yerli oyunçuların da dəstəyi ilə kənardan gələn monqolların fəthi nəticəsində mümkün olmuşdur. Bundan sonra doğan bütün *İran* adlı siyasi konsepsiyalar Monqolların ərsəyə gətirdiyi İran anlayışının nəticəsi olmuşdur (Fragner 2018, 468).

Reallıq budur ki, İran və kimliyinin tamamən yox edilməsinin əksinə olaraq, burada yaşayan və hazırda *iranlılar*, yaxud *farslar* adlandırılan əhali Monqol imperiyasının vacib tərkib hissəsinə çevrilmişdir. Onlar ərazinin Monqol imperiyasına inteqrasiyasını təşviq etmişlər. Eynilə bunun kimi monqolların islama qarşı düşmənçiliyi barədə əsasən həmin dövrdən sonra yaşamış ərəb müəlliflərin iddiaları da Mərkəzi Asiyada monqolları xilaskar kimi qarşılayan müsəlman Qara-Kitayların nümunəsini görməzdən gəlir. (Lane 2014, 144).

Bu ərazilərin işğallarının tamamlanmasından sonra formalaşmış Pax Mongolicanın idarəçiliyi altında rifah dövrü isə, xüsusən Qazan və Olcaytunun hakimiyyəti illərində, hazırda *fars,* yaxud *iranlı* adlanan əhaliyə böyük töhfələr gətirmişdir. Monqol erası Böyük İran-*İranzəmin* konsepsiyasını yenidən dirçəltməklə

yanaşı, bu konsepsiya tarixi İranın özünü də yeni mənada canlandırmış, bu yer ideyasını birdəfəlik insanların beyninə həkk etmişdir. Cüveyni ailəsi, Təbriz Malikan ailəsi, Rəşidəddinin ailəsi, Nəsrəddin Tusi kimi yalnız bəzilərinin adını çəkərək qeyd edək ki, tacik bürokratlarının parlaq karyeraları bütün Monqol imperiyası boyunca yayılmış və Hanqjouda tarixi Tacik icmasının da yaranmasına yol açmışdı. Fars dili tarixçiliyin dili kimi ərəb dilini əvəz etmiş və onun arealı Teymurilər və Moğollar kimi monqol və Çingizi sülalələrinin sonrakı varislərinin sayəsində daha da genişlənmişdi. Monqol imperiyasında qadınların tutduğu yüksək mövqe İran üçün də əxz edəcəkləri nümunəyə çevrilmişdi. Şirazın İncui şahzadəsi Cahan Məlik Xatunun həyatı və ədəbi fəaliyyəti İlxanilər cəmiyyətində qadınların ciddi azadlıqlara və yüksək statusa malik olmalarının nəticəsi idi (De Nicola 2017, 247). Müasir kimlik quruculuğunun əsasında duran təcridedici etnosentrizmdən fərqli olaraq, eramızın ikinci minilliyinin əksər dövrü boyunca Çingizin əsasını qoyduğu idarəçilik mirası və İran bir sikkənin qarşılıqlı faydalı olan ayrılmaz iki üzü idi.

İranlı adlanacaq hər şeyin mənbəyi və mahiyyət tərifi üçün mühüm kitab olan *Şahnamə* son Səlcuq hakimləri və Xarəzmşahlar dövründə tarixin qaranlıqlarından işıq üzünə çıxarılmış, monqolların xidmətində ciddi təbliğat vasitəsinə çevrilərək, monqol libasında badam gözlü qəhrəmanları təsvir edərək vizual dillə monqolları legitimləşdirmişdir (Melville 2018). *Şahnamə*nin sənət, dil, poetik məziyyətlərinin yüksək qiymətləndirilməsi məhz Monqol idarəçiliyi ilə birgə gəlmişdir (Melville 2016, 201). Bu gün *Şahnamə*nin bütün əsas və daha yaxşı saxlanılmış əlyazmaları İlxanilərin və sonrakı Monqol sülalələrinin dövründə yazılmış, sülalələrin yuxarıda təsvir olunan vizual dilinin əks olunduğu nüsxələrdir. Məhz elə bu dövrdə, bu vaxta qədər tamamilə ərəb dilinin kölgəsində olan fars dilli tarixçilik həqiqətən çiçəklənməyə başlamışdır (Meville 2012, 156).

İlxanilərin sonu birdən gəldi, lakin Qazan və Olcaytu dövründə

əsası qoyulmuş Böyük İran modeli İran tarixində ciddi iz buraxacaqdı. İsfahanın Cümə məscidində Olcaytunun mehrabı İslam dünyasının ən nəfis işlənmiş mehrablarındandır və Olcaytunun, ilk əvvəl Kərbəladan Şiə yadigarlarının koçürülməsi üçün nəzərdə tutulmuş mavzoleyi indi də Sultaniyyəni bəzəyir. Həmçinin burada Taxti-Süleymanı, Marağa rəsədxanasını, Varamin imamzadəsini, Yəzddə Came məscidini də sadalaya bilərik.

İranı İlxanilərdən sonra idarə etmiş digər türk-monqol sülalələr də, yəni Cəlairilər, Çobanilər, Teymurilər, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar hamısı oxşar ideyanı, yəni İranın kosmopolit inzibati strukturunun türk-monqol köçəri siyasi və hərbi elitası tərəfindən idarə edilməsini həyata keçirmişlər (Fragner 2018, 468). Faktiki olaraq, 1500-cü illərin əvvəllərində Səfəvilərin hakimiyyətə gəlməsinə qədər Çingiz nəslinə mənsub olmaq bölgədə hakimiyyətin legitimliyinə iddia üçün əsas olaraq qalırdı. Səfəvilər və Teymurilər, həmçinin monqol vergi sistemini də saxlamışdılar (Biran 2007, 118). Birbaşa İlxanilərdən sonra gələn sülalələr üçün Təbriz şəhəri imperiyanın paytaxtı və İranda ən böyük qənimət hesab olunurdu (Zakrzewski 2020, 45, 66). Monqol irsinin uzunmüddətli təsirinin ən əyani nümunələrindən biri qeyri-rəsmi olaraq hələ də İranda istifadə olunan və Qazan xan islahatları dövründə on min dinarı adlandırmaq üçün tətbiq edilmiş pul vahidi termini-*tümən*dir. Teymurun xanədanı, *Tacik və Türk* vahid siyasi quruluşun bir-birini tamamlayan tərkib hissələri olduğu kimi, *İran* və *Turan*ı əhatə edirdi.

Fars meyilli, həmçinin İran şiə meyilli hekayələrin sevimli mövzusu olan Səfəvilər də öz hakimiyyətlərini Çingizin və Teymurilərin universal hakimiyyət stilində legitimləşdirirdilər. Səfəvi təzkirəçi və tarixçisi Qazi Əhməd özünün Şah Təhmasib üçün yazdığı *Tarixi Nigaristan* əsərində tez-tez digər hakimlərlə yanaşı Çingiz və Qazan xanın da müdrikliyini yada salır (May 2020, 822). Hətta Səfəvilərdən sonra Əfşarlar sülaləsinin əsasını qoymuş Nadir də

hakimiyyətinin legitimliyini təmin etmək üçün Türk-Monqol ənənəsinə müraciət edərək Muğanda *qurultay* keçirdərək taxta çıxmışdı. Nadir Osmanlılara məktublarını türkcə yazırdı ki, burada Çingiz xan dövrünə gedib çıxan ümumi genealogiyanı vurğulayırdı. Nadir öz saray şairlərindən tələb edirdi ki, onun Çingizin fəthlərini təkrarlayacağını car çəkən şeirlər yazsınlar (O’Brien 2022, 29). Qacarlar, hansılar ki, sülaləsinin başlanğıcı Monqol ordusu komandanlarından birinin oğlu olan Qacar Noyona aparılıb çıxarılır, Çingizin Qacar stilində libaslarda rəsmlərini saraydan asırdılar (Farmanfarmaian 2022, 199). 17-ci əsrin sonlarında İran əsilli Moğol Hindistan məmuru Məhəmməd Mofid öz ölkəsi haqqında yazdığı bir hesabatda *İranzəmin* konsepsiyasını yada salır və türkmən Qərbi ilə Teymuri Şərqini yenidən birləşdirdiklərinə, həmçinin İranın İlxani konsepsiyasını yenidən dirçəltdiklərinə görə Səfəviləri öyürdü (Fragner 2019, 67). Cüveyninin *Tarixi-Cahanquşəsindən* başlayaraq, məhz onun bazasında modelləşdirilmiş bir tarixşünaslıq xətti vardır ki, Qacar dövrünə aid *Cahan Guşeyi Nadirə* qədər davam edir (Amanat 2012, 297).

**İranın kollektiv yaddaş itkisi**

Müasir İran tarixşünaslığı köçəri türk-monqolların rolunu silib, inkar edən fars mərkəzli nəzər-nöqtəsi nəfinə bütün bunları danır. Onların görüşünə görə, bu köçərilər İranın ali oturaq mədəniyyətinə aid deyillər. Hətta BBC-nin *Fars İncəsənəti* adlanan sənədli filmi belə İran tarixinin bu fars mərkəzli görüşünün qurbanı olaraq iddia edir ki, İran monqol işğalından yalnız farsdilli bürokratların qurduğu fəaliyyət nəticəsində salamat qurtula bilib (Hart 2020). 20-ci əsr İran tarixşünaslığı farsdilli bürokratlara daha çox yer ayırır, monqollar isə viranla, sarsıntılı xarici işğalla sinonimləşdirilir. İranın salamat qurtulması monqolların İran milli mədəniyyətinin *ölməz simurğunu* məhv edə bilməməsi ilə izah edilir (Biran 2007, 131).

Monqolların sonda İslamı və Fars mədəniyyətinin aliliyini

qəbul etməsi kimi söhbətlər də yenə dinə, dilə və farslaşmağa anaxronistik bir əhəmiyyət verir. Türk-monqollar tərəfindən inkişaf etdirilmiş və qidalandırılmış mədəniyyət ancaq farslara aid edilir. 13-cü əsrdə monqol xanlarının islamı qəbul etməsi qətiyyən onların öz monqolluğundan və monqol köklərindən hansısa başqa bir şeyin nəfinə imtinası anlamına gəlmirdi və üstəgəl, onların qəbul etdiyi islam ilk növbədə öz türk-monqol təbəələrinin qəbul etdiyi islam idi ki, onlar Çingiz varislərinin dinini dəyişdirməsi üçün bu yolu açmışdılar (Lane 2022, 289; Pfeiffer 2016). Eynilə, rəsədxanaların açılmasının həddən artıq maliyyələşdirildiyi kimi, dinlər monqolların beyinlərində dolaşan əbədi suallara cavab axtarışının başqa bir yolu idi ki, Çingizilərə aid şəhərlərdə keçirilən *müdriklik bazarları* bunun əyani sübutudur (Lane 2016, 235).

Monqolları və digər köçəriləri günah keçisi şəklində təqdim edən hekayələrin erkən nümunələrini Əl-Əfqaninin əsərlərində də tapmaq mümkündür ki, o, 1859-cu ildə Qahirədə olarkən yazırdı ki, Çingizilər, Teymurilər və digər tatar hökumətləri oğru barbarlar idi (Kenny 1966, 22). Qacar tarixçisi Rzaqulu Hidayət yazırdı ki, Qacarın Kirman üzərinə hücumu Çingiz və Hülakünün qətliamlarının təkrarlanması idi (Amanat 2012, 317). Birinci Dünya Müharibəsindən sonrakı dövrdə, Pəhləvilərin iqtidarı zamanında bir tərəfdən zərdüştilik keçmişi ideallaşdırılır, digər tərəfdən türklərə *sarı xətər* kimi xitab olunurdu (Atabaki 2020, 72). Öz tayfa adları olan Palanidən imtina edərək soyadlarını farslaşdıran Pəhləvilərin hakimiyyəti dövründə farsların ərəb və türklər üzərində mədəni üstünlüyünün nümayiş etdirilməsi adi hala çevrildi.

Fars mərkəzli tarixşünaslığı müzakirə edərkən biz ən əsas, müvafiq təhsil almamış tarixçilərin Pəhləvilər dövründə yazdıqlarını, xüsusən 1933-cü ildə İranın ümumi tarixini qələmə almış Abbas İqbalı nəzərdə tuturuq. Məhz onun yazılarında həqiqətən, bu gün müasir İranın hər yerində mövcud olan obrazının başlanğıcını görürük. Bu obrazın iddiası odur ki, monqollar böyük fars və Çin mədəniyyətlərini dağıda

bilmədilər və böyük İran və Çin millətləri dirçələrək İslam və Buddizmi yaymağa müvəffəq oldular. İran İslam Respublikasının tarixçiləri də bu proseslər barədə yazılarında çox fərqlənmirlər, çünki öz əsərlərini ancaq Pəhləvi dönəmi tarixçilərinin bazasına əsaslanaraq yazırlar. İran İslam Respublikasının rəsmi tarixçisi Rəsul Cəfərian İlxanilər dövrünü qiymətləndirərkən onu monqollara qədərki və sonrakı İslam eraları arasında bir kəsilmə kimi qələmə verir, Bayani kimi müəlliflər isə İran mədəni aliliyi ideyasını işğalçıya qarşı qələmi ilə mübarizə aparmış və yenmiş şiə azadlıq mücahidi ideyası ilə əvəzləyir (Pistor-Hatam 2021, 17).

19-cu əsrə qədər monqol genealogiyasına mənsubluq bütün İran hakim sülaləri üçün hakimiyyətə iddialarını legitimləşdirmək üçün əsas üsul idi. İran tarixinə hazırkı fars mərkəzli yanaşma daimi qurban kimi təqdim olunmanın yaratdığı nağıldır. Yəni Çingiz İslam dünyasının və fars mədəni arealının yaradıcılarından biri kimi qiymətləndirilməlidir, necə ki, bugünkü Monqolustanda o, buddizmi yayanlardan biri hesab olunur.

**Daxili Asiyanın fars, rus və Çin şovinizmi**

İranlıların monqollara münasibətini izah etməyin müxtəlif yolları var, amma fars mərkəzli görüşün aparıcı xətti budur ki, monqollar farsların yetkin sivilizasiyası üçün təhlükə idilər (Fragner 2006, 69). 13-cü əsrdə heç vaxt yaşamayan, həmin dövrün hadisələrinin heç vaxt şahidi olmayan iranlılar sanki keçmişə baxanda özlərinin guya digərlərindən daha üstün əcdadlarının yenidən *iranlı, yaxud fars* olmaq üçün kənar yardıma ehtiyacı olmasını etiraf etməkdən dərin xəcalət hissi keçirdirlər.

Müasir iranlıların iddia etdikləri tərzdə monqolların onların millətini məruz qoyduqları travma halı o hallarda baş verir ki, kollektiv qrup şüurlardan silinməsi mümkün olmayan bir iz qoymuş travmaya məruz qaldığına inandırılır (Alexander 2004, 1). Bu cür travmaların sülh çağlarında istifadəsinə xüsusi

ehtiyac duyulmur, lakin böhran zamanı onlar Səddam Hüseynin 2003-cü ildə ABŞ müdaxiləsini Monqol işğalına bənzətməklə tarixi travmanı səfərbər etmək cəhdinə oxşar tərzdə yada salınır, onlara yeni həyat verilir və yeni düşmən qarşısında onlarla təkrar üz-üzə gəlinir.

Beləliklə, “Monqol soyqırımı” obrazı və onun iranlıların və ya farsların kollektiv psixikasına etdiyinin funksiyası klassik “seçilmiş travma” nümunəsidir ki, bu zaman tarixi hadisələrin həqiqiliyi bulanıq və əhəmiyyətsiz olur (Volkan 2021, 1). Başqa sözlə, “Monqol soyqırımının” məhv etdiyi insanların kimliyi və dəqiq sayı ikinci dərəcəli məsələyə çevrilir və travmanın daşıyıcıları əzaba məruz qalanları heç də ayırmır və hətta tanımır. Uzaq keçmişdə baş verməsinə və şübhəli olmasına baxmayaraq belə seçilmiş travmalar insanların müasir dövrdə hərəkətlərinə yön verir.

İranlıların monqolları orientallaşdırarkən aktyorları tarixi dövrdəki rollarına uyğun libasa bürüməyi əhəmiyyətli saymayan *300* adlanan musiqili tamaşalarında olduğu kimi tarixşünaslıqları da hazırkı dövrün siyasi məqsədlərinə xidmət edərək anaxronistik şəkildə günümüzün termin və kimliklərini keçmişə daşıyır. Bu, İran tarixşünaslığının ardıcıllıq nağılıdır və nağıldır ona görə ki, monqolların vurduğu travma fars şovinizminin xidmətindədir.

Uydurma hekayələr müxtəlif yollarla, o cümlədən müəyyən iyerarxiyaları əsaslandırmaq üçün istifadə oluna bilər ki, bunlar da öz-özlüyündə sosial biliyi formalaşdırır. (Toomey et al 2023, 4). Seçilmiş travmaların digər bir mühüm aspekti budur ki, onlar dramatik ideologiyalar, yaxud milli bərpa layihələri vasitəsilə travmanın aradan qaldırılması üçün imperativlər yaradırlar (Volkan 2021, 1). Bizim nümunədə bu farslaşdırma layihəsidir ki, İran tarixinə türklərin, monqolların və köçərilərin töhfələrinin silinib atılmasına haqq qazandırır. Bu layihə sonradan İran İslam Respublikası dövründə islamlaşdırılmış, bununla belə, özünün kəskin fars mərkəzli meylini qoruyub saxlamışdır. “Sarsılmaz millətin”

məruz qaldığı digər travma və alçaldılmalarla birgə monqol obrazı İran/farslığın böyük hekayəsinin və kollektiv mənasının vaz keçilməz tərkib hissəsidir (Hirschberger 2018, 2). Bu seçilmiş travmanın mütəmadi olaraq təkrar istehsalı İran tarixşünaslığının üzərinə özlərinin tarixi propaqandalarını korrektə etmək və tarixlərindəki bu görünməz məqamları silmək yükü qoyur.

*Soyqırımın* tərifi və epistemiologiyasına baş vurmadan bu gün belə hekayələrin faydalılığını asanlıqla görmək mümkündür. Aşağı biri kimi tərif edilmiş *özgə* millətə özünü olmadığı kimi tərif etmək və özgələrə münasibətdə kimlik və iyerarxiya qurmağa imkan verir. Başqa sözlə, müasir iranlı monqollardan şikayət edərkən elə ilk paraqrafın birinci cümləsi farsların ölkənin azlıqları üzərində aliliyinə və onların mədəni və dil hüquqlarının davamlı sıxışdırılmasına haqq qazandırır. İran diasporasının bəzi nümayəndələri ölkələrinə demokratiya çağırışı etsələr də, onların monqollar tərəfindən məruz qaldıqları *seçilmiş travmaya* bağlılığı bəyan etdikləri demokratik dəyərlərin ziddinə olaraq imperiyanı əsaslandırdıqlarına işarə edir.

Əksəriyyət artıq bilir ki, fars mərkəzli İran millətçiliyi Arianizm kimi irqçi ideyalardan ilhamlanmışdır. Lakin bu məqalənin məqsədləri çərçivəsində fars mərkəzli hekayələrin monqollara, türklərə və İç Asiyanın köçəri xalqlarına qarşı irqçi münasibətinin xüsusiyyətlərini izah etməyə ehtiyac vardır. Geniş Avrasiya bölgəsi və son iki yüz ildə milli dövlətlərin imperiyaları əvəzləməsi makrotarix çərçivəsində monqolların belə özgələşdirilməsi və günah keçisinə çevrilməsi kontinental Avrasiyanın mərkəzində bir çoxları üçün faydalı vasitə olmuşdur və hələ də olmaqda davam edir. İran misalında məhz elə bu proses idi ki, İran sülalələrinin qat-qat daha kosmopolit tarixini silən fars mərkəzli dünyagörüşün formalaşmasına töhfə vermişdi.

1970-ci illərdən əvvəl beynəlxalq və milli İran tarixşünaslıqları az-çox dialoqda idi və o dövrün

tarixçilərinin baxışları göstərir ki, milli tarixşünaslıqda İç Asiya köçərilərinin bu cür aşağılanması norma idi. Məşhur fransız tarixçisi Rene Qrosse İç Asiya köçərilərini böyük qədim sivilizasiyaların ucqarlarında “qurd sürüsünə” bənzədirdi (Sneath 2023, XI). Denis Sinyor özünün “Erkən İç Asiyanın Kembric tarixi”ndə yazırdı ki, İç Asiya tarixi barbarlar tarixidir (Sinor 1990, Frontmatter).

Yuxarıda təsvir edilmiş tarixin Avrosentrik izahlarına uyğun olaraq, İran nativizminin banisi Cəlal Əhməd iddia edirdi ki, ancaq oturaq həyat sürən insanlar yazını ixtira edə bilər və Əhəmənilərdə də yazı oturaq həyata keçəndən sonra meydana gəlib (Pistor-Hatam 2007, 570). Monqolların Pəhləvilər dövründə ilk rəsmi tarixini yazan İran tarixçisi Abbas İqbal inanırdı ki, iranlılar oturaq həyat sürən, nəfis, sivil, yüksək mədəniyyətli olduqları halda monqollar qaranlıq, vəhşi, sari dərili tatarlar, sivilizasiyadan, mədəniyyətdən uzaq köçəri idilər.  İBuna oxşar şəkildə Əli Şəriətinin “Qırmızı şiəlik və qara şiəlik” essesində monqollara haqqında danışılan “özgə” və düşmən konsepsiyasında mərkəzi rol verilir (1974). Populyar mədəniyyətdə, misal üçün İslam inqilabına qədərki dövrdə çəkilmiş *Monqollar* filmində televiziyanın kənd İranının həyatına davamlı müdaxiləsi monqol işğalı ilə müqayisə edilir (Mogholha n.d.).

Akademik araşdırmada qarşılıqlı məlumatlılıq prinsipi var ki, beynəlxalq tədqiqatçıların bir-birinin işləri ilə tanış olmasını və bir-biri ilə tədqiqatları çərçivəsində dialoq içində olmağı ehtiva edir (Pistor-Hatam 2014, 295). Qismən məhz bu paradiqmaya görədir ki, bu essenin də göstərdiyi kimi, Qərb akademiyası son onilliklərdə monqollar və digər İç Asiya köçəriləri barədə Avrosentrizmin yaratdığı obrazı düzəltmək üçün böyük addmlar atmışdır. Monqol dövrü haqqında yazan İran müəllifləri isə monqol imperiyası tarixi barədə bu beynəlxalq elmi diskursdan biləəkdən kənarda qalmışlar. Qısası, bunu etməklə müasir İran tarixşünaslığı elm deyil, ideologiya olaraq qalır və təkrar-təkrar belə obrazları reproduksiya edən diaspora da elmi deyil, ideologiyanı təkrarlayır.

2023-cü ildə İran İç Asiya köçərilərinin tarixini özgələşdirən və silən yeganə yer deyil. Qəbul edilmiş fikrin əksinə olaraq, Avrasiyada müstəmləkəçi-oturaq imperializm aktivdir və çiçəklənməkdədir (McNamee 2023). Əgər Rusiya əksər ərazilərini Çingizilərə məxsus olanları ələ keçirməklə qurulan oturaq müstəmləkəçi imperiyadırsa, Çin Mançu Qinq imperiyasının kosmopolit keçmişinə sahib çıxmış Sino-sentrik imperiyadır. Eynilə bunlar kimi, İran dövlətlərüstü ideologiya hesabına mövcud olan ölkə olsa da, mahiyyəti etibarilə Rusiya və Çinə yaxındır. O, kosmopolit bir irsə sahib çıxsa da, İç Asiyanın, türklərin, monqolların tarixini və irsini öz tarixşünaslığından silməklə, inkar etməklə onu şovinist avtokratiyanın xidmətinə vermişdir. Monqollardan gördükləri məşəqqətlər barədə ifrata vardırılmış yaddaş İranlıların psixikasında dərin yer elədiyi kimi, diasporadakı iranlılar da həmçinin ölkələrinin müxtəlifliyinə yarayacaq alternativ tarixi hekayəni təsəvvür etməkdən çəkinirlər.

2003-cü ildə Los Anceles əyalətinin incəsənət muzeyi “Çingiz xanın mirası” adlanan sərgi təşkil edəndə İran diasporasının nümayəndəsi Əhməd Cabbari şikayət məktubu yazaraq sərginin İran icmasının hisslərinə toxunduğunu bildirmişdi. O, təklif edirdi ki, sərginin adı “Hitlerin mirası” kimi dəyişdirilsin (Jabbari 2003). 2020-ci ildə Nant qəsri İç Monqolustan muzeyi ilə birgə oxşar sərgi təşkil etmək istərkən Çin oradan Çingiz və monqol sözlərinin yığışdırılmasını istəmişdi. Çinin tələblərini yerinə yetirməkdən imtina edilməsi sərginin ləğvi ilə nəticələnmiş və o, yalnız 2023-cü ilin oktyabrında Monqolustan hökumətinin dəstəyi ilə açılmışdı (Chrisafis 2023). ələ işləyir.

**İstinadlar:**

“ĒRĀN, ĒRĀNŠAHR” Encyclopaedia Iranica Foundation. (n.d.). Welcome to Encyclopaedia Iranica. https://iranicaonline.org/articles/eran-eransah

“Musical “300” in Saadabad Palace complex. (n.d.). Honaronline. https://www.honaronline.ir/Section-photos-11/174313-musical-in-saadabad-palace-complex

Alexander, J.C., ‘Toward a Theory of Cultural Trauma’, Cultural Trauma and Collective Identity (Oakland, CA, 2004; online edn, California Scholarship Online, 22 Mar. 2012), https://doi.org/10.1525/california/9780520235946.003.0001, accessed 3 Nov. 2023.

Amanat, A. (2012). Legend, Legitimacy and Making a National Narrative in the Historiography of Qajar Iran (1785–1925). Persian Historiography. https://doi.org/10.5040/9780755610426.CH-007

Atabaki T. (ed.) 2009, 336 p.. Iran in the 20th Century. Historiography and Political Culture. London/New York, I.B. Tauris.

Biran M. (2007). Chinggis Khan. x+182pp, One World Publications, Oxford (in the series “ The Makers of the Muslim World”). https://www.academia.edu/32453356/Biran_Chinggis_Khan_Makers_of_the_Muslim_World_2007

Biran M., (2018). “Violence and Non-Violence in the Mongol Conquest of Baghdad,” in Robert Gleave and István Kristó-Nagy, eds. Violence in Islamic Thought from the Mongols to European Imperialism. Edinburgh: Edinburgh University Press, 2018: 15-31 https://www.academia.edu/37596405/Biran_2018_Violence_and_non_Violence_in_the_Mongol_conquest_of_Baghdad_pdf

Biran M., (2023). “Ilkhanid Baghdad (1258-1335): Between the Local and the Global.” In The Mongols in Global History and Art History, ed. Anne Dunlop, 185-215. Florence: I Tatti – The Harvard University Center for Italian Renaissance Studies ; Rome: Officina Libraria.

https://www.academia.edu/104252344/Biran_2023_Ilkhanid_Baghdad_1258_1335_Betwen_the_Local_and_the_Global

Biran, M. (2019). Libraries, Books, and Transmission of Knowledge in Ilkhanid Baghdad. Journal of the Economic and Social History of the Orient, 62(2-3), 464-502. https://doi.org/10.1163/15685209-12341485

Brinkmann S.: Mongolischer illuminierter Prachtkoran mit Goldtinte, in: Ein Garten im Ärmel. Islamische Buchkultur, hg. v. Verena Klemm, Leipzig 2008, S. 11

Chrisafis, A. (2023, November 3). Blockbuster show on Genghis Khan opens in France after row with China. The Guardian. https://www.theguardian.com/world/2023/nov/03/blockbuster-show-on-genghis-khan-opens-in-france-after-row-with-china?CMP=share_btn_tw

Dashdondog, B. (2020). Mongol Diplomacy of the Alamut Period. Eurasian Studies, 17(2), 310-326. https://doi.org/10.1163/24685623-12340078

De Nicola, B. (2017). Women in Mongol Iran: The Khatuns, 1206-1335. Edinburgh University Press. http://www.jstor.org/stable/10.3366/j.ctt1g09twn

Durand-Guedy, (2014). « What does the history of Isfahan tell us about Iranian society during the Saljuq period? », in Edmund Herzig and Sarah Stewart (eds) The Idea of Iran, vol. 6: The Age of the Seljuqs (London and New York: I.B. Tauris, 2014), pp. 58-73. https://www.overdrive.com/media/2385738/the-age-of-the-seljuqs

Farmanfarmaian, F. S. Fraying at the Edges: Iran and the Khanates of Central Asia. The Contest for Rule in Eighteenth-Century Iran. https://doi.org/10.5040/9780755645985.CH-008

Fragner, B. (2006). “Ilkhanid Rule and its Contributions to Iranian Political Culture”. In Beyond the Legacy of Genghis Khan. Leiden, The Netherlands: Brill.

https://doi.org/10.1163/9789047418573_011

Fragner, B. (2018): „Central Asian aspects of pre-modern Iranian history (14th to 19th century)“. Bamberg: opus. https://fis.uni-bamberg.de/server/api/core/bitstreams/fca52f1e-6031-46f6-a4f0-cf2c409f437a/content

Fragner, B. (2019). The Mental Mapping of Iran, Identity and Patriotism in Early Modern Iran – The Case of Moḥammad-e Mofīd. Studia Litteraria. 59-73. 10.4467/20843933ST.19.023.10966.

Guinnane, T. (2023). We Do Not Know the Population of Every Country in the World for the Past Two Thousand Years. The Journal of Economic History, 83(3), 912-938. doi:10.1017/S0022050723000293

Hart F. Rebuilding Iran. (2020, July 19). CURRENT ORB WEBSITE. https://www.the-orb.org/post/rebuilding-iran

Hirschberger G. Collective Trauma and the Social Construction of Meaning. Front Psychol. 2018 Aug 10;9:1441. doi: 10.3389/fpsyg.2018.01441. PMID: 30147669; PMCID: PMC6095989.

Jabbari A.K., “The Legacy of Genghis Khan” at Los Angeles County Museum of Art—again. (2003). https://web.archive.org/web/20080222213844/http:/www.payvand.com/news/03/jun/1074.html

Kenny, L. M. (1966). Al-Afghānī on Types of Despotic Government. Journal of the American Oriental Society, 86(1), 19–27. https://doi.org/10.2307/597867

Lane G. “The Ilkhanate” Chapter Sixteen. May, T., & Hope, M. (Eds.). (2022). The Mongol World (1st ed.). Routledge. https://doi.org/10.4324/9781315165172

Lane, G. (2012). A Tale of Two Cities: The Liberation of Baghdad and Hangzhou and the Rise of the Toluids. 56. 103-132. https://www.academia.edu/10196128/The_Fall_of_Baghdad_and_Hang

zhou

Lane, G. (2014). Chingiz Khān: Maker of the Islamic World. Journal of Qur'Anic Studies. https://www.academia.edu/46215039/Chingiz_Kh%C4%81n_Maker_of_the_Islamic_World

Lane, G. (2016). Intellectual jousting and the Chinggisid Wisdom Bazaars. Journal of the Royal Asiatic Society, 26(1/2), 235–247. http://www.jstor.org/stable/24756052

Lane, G., ' The Mongols in Iran', in Touraj Daryaee (ed.), The Oxford Handbook of Iranian History, Oxford Handbooks (2012; online edn, Oxford Academic, 18 Sept. 2012), https://doi.org/10.1093/oxfordhb/9780199732159.013.0011, accessed 2 Nov. 2023.

Larson, V. H. (2018). The Art of the Qur'an – landmark exhibit shows holy book as text and work of art. The Guardian. https://www.theguardian.com/artanddesign/2016/oct/24/art-of-quran-exhibit-smithsonian-sackler-washington

Manz, B. F. (2022). The Mongol Conquest of Iran. In Routledge eBooks (pp. 196–212). https://doi.org/10.4324/9781315165172-16

May, T., & Hope, M. (Eds.). (2022). The Mongol World (1st ed.). Routledge. https://doi.org/10.4324/9781315165172

McNamee, L. (2023, October 20). Settler colonialism is not distinctly Western or European | Aeon Essays. Aeon. https://aeon.co/essays/settler-colonialism-is-not-distinctly-western-or-european

Melville C. (2012). Persian Historiography (1st ed.). Bloomsbury Publishing. Retrieved from https://www.perlego.com/book/915879/persian-historiography-a-history-of-persian-literature-pdf (Original work published 2012)

Melville C. (2018) "Interview with a Fellow: From seismology

to Mongols” https://www.youtube.com/watch?v=hZUu_H8X_bs

Melville, C. (2016). Rashīd al-Dīn and the Shāhnāmeh. Journal of the Royal Asiatic Society, 26(1/2), 201–214. http://www.jstor.org/stable/24756049

Mogholha | Sabzian. (n.d.). https://www.sabzian.be/film/mogholha

Munkh-Erdene, L. (2023). “Chapter 6 Beyond Evolutionary Materialism: The Military Pathway”. In The Nomadic Leviathan. Leiden, The Netherlands: Brill. https://doi.org/10.1163/9789004546516_008

O’Brien, J. Dismembering the Corporate: The Single Portraits of Nader Shah and the Changing Body Politic in Post-Safavid Iran. The Contest for Rule in Eighteenth-Century Iran. https://doi.org/10.5040/9780755645985.CH-002

Pfeiffer J. – Alexander von Humboldt Professorship 2016 (EN) https://www.youtube.com/watch?app=desktop&v=In1eln3p1XQ&t=7s

Pistor-Hatam A. Geschichtsschreibung und Sinngeschichte in Iran. Historische Erzählungen von mongolischer Eroberung und Herrschaft, 1933-2011 https://www.academia.edu/41368858/Historiography_and_the_History_of_Meaning_in_Iran_Historical_Narratives_on_Mongol_Invasions_and_Rule_1933_2011

Pistor-Hatam A. Historical Thinking in Intercultural Perspective: Iranian Narratives on the Mongol Era DOI: https://doi.org/10.17192/meta.2014.3.2030

Pistor-Hatam A. Why Historiography Matters. Iran and the Mongol Era – Eight Hundred Years After Anja Pistor-Hatam Ann Lambton Memorial Lecture Durham Middle East Paper No. 105 https://www.academia.edu/45426934/Why_Historiography_Matters_Iran_and_the_Mongol_Era_Eight_Hundred_Years_After_Anja_Pistor_Hatam_Ann_Lambton_Memorial_Lecture_Durham_Middle_East_Paper_No_105

Pistor-Hatam, A. (2007). Writing Back? Jalal Al-e Ahmad’s (1923-69) Reflections on Selected Periods of Iranian History. Iranian Studies, 40(5), 559–578. http://www.jstor.org/stable/25597415

Shariati A. “Red Shi’ism – Black Shi’ism.” (2021, March 2). Al-Islam.org. https://www.al-islam.org/articles/red-shiism-black-shiism-ali-shariati

Sinor, D. (Ed.). (1990). The Cambridge History of Early Inner Asia. Cambridge: Cambridge University Press. doi:10.1017/CHOL9780521243049

Sneath, D. (2023). “Foreword”. In The Nomadic Leviathan. Leiden, The Netherlands: Brill. Retrieved Nov 3, 2023, from https://brill.com/view/book/9789004546516/front-8.xml

Toomey M., Shepherd A., “Cultural Trauma, Populist Grand Narratives, and Brexit”, Global Studies Quarterly, Volume 3, Issue 4, October 2023, ksad055, https://doi.org/10.1093/isagsq/ksad055

Volkan, V. (2021). Chosen Traumas and Their Impact on Current Political/Societal Conflicts. 10.1007/978-3-030-47817-9_2.

White, C. (2020). Climate change caused the demise of Central Asia’s forgotten river civilizations, not Genghis Khan | News | School of Geography and the Environment | University of Oxford. https://www.geog.ox.ac.uk/news/2020/20201215-climate-change-not-genghis-khan.html#:~:text=15%20December%202020-,Climate%20Change%20Caused%20the%20Demise%20of%20Central,River%20Civilizations%2C%20Not%20Genghis%20Khan&text=A%20new%20study%20challenges%20the,early%2013th%20century%20CE.

Yildiz, S. N. (2020). “Baiju: The Mongol Conqueror at the Crossfire of Dynastic Struggle”. In Michal Biran, Francesca Fiaschetti, and Jonathan Brack, Eds. Along the Silk Roads in

Mongol Eurasia: Generals, Merchants, and Intellectuals. University of California Press.

Zakrzewski, D. An Idea of Iran on Mongol Foundations: Territory, Dynasties and Tabriz as Royal City (Seventh/Thirteenth to Ninth/Fifteenth Century). The Timurid Century. https://doi.org/10.5040/9781838606169.CH-003